*Yazıçılar Birliyinin qəbul komissiyasına məktub*

# Ovqat sualları, ovqat duyğuları

Hörmətli dostlar, sözüm sizədir; yəni Yazıçılar Birliyinin qəbul komissiyasına. Sözümün sırası olacaq. Əlbəttə, mənim sözümü tələb kimi yox, mənəvi tələbat, doğmalıq ərki kimi qəbul etməyinizi istərdim.

Zabil Pərviz (Neftçala), Səyyad Sərraf (Quba), Sevindik Nəsiboğlu (Abşeron, onun 14 yaşlı olmağı istedadının üzərinə kölgə salmır), Aida Adıgözəl (Kürdəmir), Nübar Eldarqızı (Şirvan), Çingiz Musayev (Ağstafa), Mirzə Mirimli, Hidayət Səfərli, Məhəmmədəli Mehdixanlı (Cəbrayıl)... bəlkə, başqaları da var. Elə bir kimsə tapılmaz ki, bu imza sahiblərinin yazdıqlarını, yaratdıqlarını böyük söz sırasından kənarda təsəvvür eləsin. Yaxşı ki, son günlər Zabil Pərvizin və Səyyad Sərrafın Yazıçılar Birliyinə qəbulu haqqında gözlədiyim xoş xəbəri aldım. Açığı, həmişə düşünürdüm ki, Zabil Pərviz kimi bir ustad sənətkarın, Nübar Eldarqızı kimi istedad sahibinin, Mirzə Mirimli kimi bütün varlığı ilə söz içində yanan sənət aşiqinin Yazıçılar Birliyinə qəbul komissiyasının diqqətindən kənarda qalmağı sözə, sənətə ögey münasibətin təzahürüdür. Nə isə... Amma mənim bugünkü sözüm Mirzə Mirimli ilə daha çox bağlıdır. Hərçənd ki, Məhəmmədəli Mehdixanlının da dəyərli bir kitabını nəşr etmişəm və ön söz də yazmışam. Ən başlıcası, Kamal Abdullanın qənaətlərinə istinadən ön söz yazmışam. Mən demirəm ki, konkret söz təəssübkeşi kimi sözüm həllediciidir. Ancaq çox istərdim ki, həyatını, taleyini sözə bağlamış qələm sahiblərinə diqqətimizi əsirgəməyək.

Əziz dostlar, çox ola bilsin ki, adları yadıma düşməyən digər istedadlar da var. Bunu mənim diqqətsizliyim kimi qəbul etməyin.

Çox istərdim ki, bizim Yazıçılar Birliyi varisliklə günümüzə qədər gəlib çatmış məbəd gücünü bundan sonra da qoruyub saxlasın.

Yazıçılar Birliyinə son vaxtlar gələn obrazların gəncliyi, cavanlığı məni daha çox sevindirir. Ancaq bundan da artıq sevinəcəyim o zaman olacaq ki, onlar həqiqi söz sahiblərinə doğmalıqla, səmimiyyətlə qapı açacaqlar. Əlbəttə, söhbət könül qapısından gedir.

*Əli Rza XƏLƏFLİ*
*10.08.2022*

Kredo.- 2022- ci il.- 10 avqust.- S. 16.